**UOT94 (479.24)**
**https://doi.org/10.59849/2710-0820.2024.1.67**

**Lamiə Sultanova**
*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu*
*Azərbaycan Cümhuriyyəti tarixi şöbəsinin elmi işçisi,dissertant*
*tarix1650@yandex.com*
*Azərbaycan*

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN İQTİSADİ SİYASƏTİNİN AQRAR ASPEKTLƏRİNƏ DAİR

***Açar sözlər:*** *Azərbaycan Xalq Cümhuriyyəti, torpaq, kənd təsərrüfatı, kəndli, Aqrar komissiya*

## Giriş

Birinci Dünya müharibəsi ilə əlaqədar Azərbaycan iqtisadiyyatında tənəzzül halları meydana çıxmışdı; müharibənin doğurduğu sosial-iqtisadi fəsadlar sonrakı siyasi proseslər gedişində daha da ağırlaşmış, bu səbəbdən Xalq Cümhuriyyəti öz mövcudluğunun bütün dönəmlərində xalq təsərrüfatının bütün sahələrini öz cənginə almış fəlakətli böhran durumundan qurtula bilməmişdi. 1917-ci ildə bütün Rusiyanın, o cümlədən, Azərbaycanın inqilabi çalxalanmalar dönəminə qədəm qoyması böhranın dərinləşməsinə bir növ təkan verdi. Həmin ilin oktyabrın 25-də baş vermiş bolşevik çevrilişinin ümumimperiya siyasi, hüquqi və sosial-iqtisadi məkanının parçalanmasına gətirib çıxarması, 1918-ci ildə Şaumyan güruhunun sovet hakimiyyətini bərqərar etmək bayrağı altında azərbaycanlılara qarşı soyqırım siyasəti, ölkəmizin qanlı çarpışmalar və savaş meydanına çevrilməsi və s. amillər iqtisadi kollapsı şərtləndirdi.

1918-ci ildə daşnak-bolşevik dəstələrinin azğınlığı nəticəsində Şamaxı, Quba, Şuşa, Lənkəran kimi şəhərlərdə dağıntılar törədilmişdi. Bir faktı qeyd etmək lazımdır ki, Azərbaycanın Rusiya tərəfindən işğalından əvvəl 1500 evin olduğu Şamaxıda 1920-ci ildə cəmi bir bina salamat qalmış, şəhər o dərəcədə viran edilmişdi ki, dövlət idarələrini yerləşdirməyə bina tapılmırdı [16, s. 101].

Birinci Dünya Müharibəsi dünyanın əksər ölkələrinin iqtisadi vəziyyətinə sarsıdıcı zərbə vurmuşdu. Müharibədən sonra Qərbi Avropanın inkişaf etmiş ölkələrində də yaşayış səviyyəsinin aşağı düşməsi müşahidə olunurdu ki, belə vəziyyətdə Rusiyada və onun ərazisində yaranmış müstəqil dövlətlərdə də son dərəcə mürəkkəb iqtisadi durum yaranmışdı. Bu baxımdan Azərbaycan da istisna deyildi. İqtisadi böhran zamanı bir çox müəssisələr bağlanmış, işçilər iş yerlərini itirmişdilər ki, bu da ölkədə sosial sülhə və siyasi sabitliyə ciddi təhlükə yaradırdı. Ölkədəki qeyri-sabit vəziyyətə görə xarici kapitalistlərin Azərbaycan sənayesinə pul qoymaqdan çəkinməsi də iqtisadi vəziyyəti ağırlaşdıran amillərdən idi.

I Dünya müharibəsindən sonrakı dönəmdə Azərbaycanda kənd təsərrüfatının ayrı-ayrı sahələri üzrə statistik rəqəmləri müqayisə etdikdə tənəzzül müşahidə olunur. Əvvəlcədən qeyd etmək lazımdır ki, bu tənəzzül Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin iqtisadi sahədəki siyasəti ilə bağlı olmayıb, müharibədən sonrakı mövcud ümumi böhranın nəticəsi idi.

Cümhuriyyətin ilk aylarında əkin sahələrində azalma müşahidə olunurdu. Əkin sahəsi üçün ayrılmış torpaqlar ölkə ərazisinin 47 faizini təşkil edirdi. 4551780 desyatin təşkil edən ümumi torpaqların 1656800 desyatini bilavasitə əkin sahələri, 60180 desyatini bağlar, 24400 desyatini bağçalar, 25300 desyatini üzüm sahələri, 180000 desyatini isə otlaq sahələri üçün ayrılmışdı [5, s. 133].

Taxıl sahələri 1917-1918-ci illərdəki 710 min desyatindən, 1918-1919-cu illərdə 642 min desyatinə enmişdi. 1914-cü ildə Azərbaycanda 50500 min pud arpa və buğda toplandığı halda, 1919-cu ildə bu rəqəm 2,5 dəfə azalaraq 20291 min puda enmişdi [2, s. 281].

Xalq Cümhuriyyəti dönəmində respublikada olan əkin sahələrinin 76,1%-i, 6184585 desyatini əkinə yaralı, 23,9%-i, 1946100 desyatini

əkinə yararsız torpaqlar idi. Əkinə yararlı torpaqların 0,9%-ni, 55468 desyatinini malikanələr, 1%-ni, 73447 desyatinini bağlar, 26,2%-ni, 1607418 desyatinini əkin sahələri, 2,7%-ni, 166562 desyatinini biçənəklər, 14,4%-ni, 895547 desyatinini meşələr və kolluqlar, 51,9%-ni, 3387703 desyatinini isə otlaqlar təşkil edirdi [2, s. 280].

1920-ci illərdə Sovet Azərbaycanının rəhbərlərindən olmuş Q.Musabəyov Azərbaycan Xalq Cümhuriyyəti zamanı respublikadakı iqtisadi durumu tənəzzül dövrü kimi xarakterizə edərək yazırdı ki, əkin sahələri ilbəil azalırdı. Sənaye üçün mühüm əhəmiyyət kəsb edən küncüt, pambıq, barama və digər texniki bitkilərin istehsalı demək olar ki, dayanmışdı. Heyvandarlıq fövqəladə sürətlə deqradasiyaya uğramışdı [14, s. 2].

Nəzərə alsaq ki, bəhs olunan dövrdə Azərbaycan əhalisinin 77%-ni kənd əhalisi təşkil edirdi [3, s. 33] kənd təsərrüfatında davam etməkdə olan tənəzzülün qarşısının alınması məqsədilə ciddi islahatların aparılması təxirəsalınmaz tədbirlərdən idi. Bu baxımdan 1918-ci ilin mayın 28-də Tiflisdə müstəqilliyini elan etmiş gənc dövlətin taleyi daha çox Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin həyata keçirdiyi sosial və iqtisadi siyasətdən asılı idi.

Qeyd etmək lazımdır ki, hələ Zaqafqaziya Seyminin qəbul etdiyi 1918-ci il 7 mart tarixli aqrar qanuna əsasən bütün torpaqlar aztorpaqlı və torpaqsız kəndlilərin arasında paylanması məqsədilə torpaq komitələrinin sərəncamına verilirdi. Qanuna əsasən iri torpaq sahibliyi ləğv olunur, sahibkarların ixtiyarında isə təsərrüfatın forma və növündən asılı olaraq 7 desyatindən 50 desyatinə qədər torpaq sahəsi saxlanılırdı [12, s. 18].

Birinci Dünya Müharibəsindən sonrakı dövrün gərgin sosial vəziyyəti və ağır iqtisadi durumu, xarici və daxili siyasətin mürəkkəbliyi ölkənin sosial-iqtisadi inkişaf proqramının həyata keçirilməsində böyük çətinliklər yaradırdı. Ölkədəki ağır iqtisadi vəziyyət xalqın rifahını getdikcə daha da pisləşdirirdi. Əsas tələbat mallarının qiymətləri fəlakətli şəkildə qalxmışdı, əmək haqqının artım tempi qiymət artımından xeyli geri qalırdı. Yaranmış vəziyyətdən çıxış yolu kimi bəhs olunan dövrdə həyata keçirilmiş aqrar islahatlar Azərbaycan Xalq Cümhuriyyətinin sosial-iqtisadi siyasətində mühüm yer tuturdu.

Xalq Cümhuriyyətinin elan olunması ərəfəsində Azərbaycan kəndində təsərrüfatların yarıdan çoxunu, 54,4%-ni yoxsul təsərrüfatları, 34%-ni ortabab, yalnız 6%-ni sahibkar təsərrüfatları təşkil edirdi. Ümumi təsərrüfatların yarıdan çoxunu təşkil edən yoxsul təsərrüfatlarında ölkə ərazisindəki əkin sahələrinin cəmi 1,8%-i cəmləşmişdi. Əkin sahələrinin 29,5%-i sahibkarların, 68,7%-i isə dövlətin payına düşürdü [12, s. 19].

Cümhuriyyətin ilk dönəmində respublikada suvarma şəbəkələri əvvəlki gücü ilə fəaliyyət göstərmirdi. Azərbaycanın əkinçilik rayonlarının arasında Gəncə rayonundan sonra ikinci yeri tutan, süni suvarmaya əsaslanan Muğan düzünün suvarılması məqsədilə suvarma şəbəkəsi və bəndlərin təmiri üçün vəsaitin ayrılması barədə 1919-cu ilin fevralın 15-də Əkinçilik naziri və su müfəttişinin adından Nazirlər Şurasının sədrinə müraciət olunur. Orada göstərilirdi ki, Muğan düzündə dövlət vəsaiti hesabına saxlanılan dörd iri suvarma şəbəkəsi xeyli zərər çəkmişdir. 25-30 min desyatinlik sahənin suvarılması üçün heç olmasa əsas su magistralının kanalları təmir olunmalıdır. Bu müraciət 1919-cu il fevralın 24-də Nazirlər Şurasının iclasında müzakirə edildikdən sonra Əkinçilik Nazirliyinin sərəncamına 200 min manat vəsaitin verilməsi qərara alınmışdı [7, s. 280-281].

Gətirilən faktlardan da bəlli olur ki, qarşısında ölkəni ağır iqtisadi böhrandan çıxarmaq kimi mühüm vəzifə duran gənc respublika üçün ilk növbədə ölkədə torpaqla təminat sahəsində mövcud olan çatışmazlıqların aradan qaldırılması və əhalinin torpağa olan ehtiyaclarının təmin olunması məqsədilə tədbirlərin görülməsi zərurətə çevrilmişdi.

Torpaq məsələsi, torpaqların özbaşına zəbt olunması hallarının artması səbəbindən xüsusilə kəskinləşmişdi. Torpaq məsələsinin həll olunmaması sahibkarların özbaşınalıqları üçün geniş imkanlar açırdı. Onlar bu sahədə mövcud olan qeyri-müəyyənlikdən istifadə edərək özbaşına kəndlilərin torpaqlarını zəbt edir, onların üzərinə əlavə vergilər qoyur, əvvəlki illərdən qalmış vergi borclarını tələb edir, bəzən də hətta bir neçə il üçün vergiləri əvvəlcədən ödəməyi tələb edirdilər. Belə vəziyyətdə narazı kəndlilər

öz etirazlarını müxtəlif formalarda bildirirdilər. Onlar vergiləri ödəməkdən imtina edir, sahibkarların təsərrüfatlarına hücumlar edirdilər. Tədqiq olunan dövrdə Gəncə, Qazax, Lənkəran, Göyçay, Ərəş, Nuxa və başqa qəzalarda kəndli həyəcanları geniş yayılmışdı; kəndlilər sahibkarların mülklərinə hücumlar edir, onların əmlaklarını məhv edir, torpaqları ələ keçirir, mülkədarlara böyük itkilər verirdilər [11].

Yelizavetpol quberniyasının mülkədarlarından Zülqədərovların, Şamxorskilərin, Qarabəyovların, Qalisinlərin, Sultanovların, Vəzirovların mülkləri talan edilmişdi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə toplanmış məhkəmə materialları nəticəsində müəyyən olunmuşdu ki, Zülqədərovların 6 milyon, Şamxorskilərin 2 milyon, Qalisinlərin 2,5 milyon manata qədər əmlakı kəndlilər tərəfindən talan olunmuşdu [6, s. 5].

Yaranmış vəziyyət torpaq münasibətləri sahəsində mövcud çatışmazlıqların aradan qaldırılması, onların tənzimlənməsi məqsədilə təxirəsalınmaz tədbirlərin görülməsini tələb edirdi. Hələ 1918-ci ilin iyunun 22-də Azərbaycan hökuməti tərəfindən Zaqafqaziya Seyminin qəbul etdiyi aqrar qanunla yanaşı Bakı Xalq Komissarları Sovetinin torpaq haqqındakı dekretinin ləğv edilməsi ilə demək olar ki, gənc respublikanın yeni aqrar qanunvericiliyi istiqamətində fəaliyyətinə bir növ start verildi [7, s. 190-191].

Aqrar məsələnin həll olunması məqsədilə 1919-cu ilin fevralın 4-də sosialist-hümmətçi Səmədağa Ağamalovun başçılığı ilə müxtəlif fraksiyaların nümayəndələrindən ibarət parlamentin Aqrar komissiyası yaradıldı [13, s. 252].

Lakin qeyd etmək lazımdır ki, aqrar islahat, torpaq münasibətlərinin tənzimlənməsi kimi son dərəcə vacib məsələlər Azərbaycan Xalq Cümhuriyyətinin qısa zaman kəsiyində bir - birini əvəz etmiş ilk üç kabinəsinin fəaliyyəti zamanı müxtəlif səbəblərdən, ilk növbədə də yerli sahibkarların buna qarşı ciddi müqavimət göstərməsi, ikincisi isə Azərbaycanda həmin vaxtı mövcud olmuş hökumət kabinələrində təmsil olunan sağ təmayüllü nümayəndələrin də maraqlarının iri torpaq sahibləri ilə üst- üstə düşməsi səbəbindən bu istiqamətdə işlər kifayət qədər ləng getmişdir [12, s. 20].

1919-cu ilin aprelindən etibarən fəaliyyət göstərən N.Yusifbəylinin rəhbərlik etdiyi dördüncü koalisiya hökumətinin fəaliyyətində də aqrar məsələ Azərbaycanın sosial-iqtisadi həyatının əsas problemi olaraq qalırdı. Həmin dönəmdə əkinçilik naziri işləmiş Əhrar partiyasının lideri A.Qardaşovun idarəsi tərəfindən torpaq münasibətlərinin nizamlanması sahəsində ciddi işlər görülmüşdü. Bu istiqamətdə ilk növbədə aqrar qanun layihəsi hazırlanana kimi torpaq mülkiyyət məsələlərində müəyyən bir nizamlamanın aparılması işləri həyata keçirilir. Əkinçilik naziri A.Qardaşov bu barədə N.Yusifbəyliyə məktubunda yazırdı: “Mənə həvalə edilmiş idarə hesab edir ki, ali dövlət orqanı tərəfindən yeni aqrar qanun hazırlanıb qəbul olunana kimi torpaq məsələsinin müxtəlif rayonlar üçün ayrılıqda həlli qəbul olunmazdır. Bu müddəadan çıxış edərək o yazırdı ki, bolşeviklər vaxtı ilə Lənkəran qəzasında Sovet hakimiyyətinin torpaq məsələsində başlıca prinsiplərindən olan onun milliləşdirilməsini həyata keçirə bilmişlər. Ona görə də o tələb edirdi ki, bu qəzanın da əhalisi torpaq mülkiyyət münasibətləri məsələsində Azərbaycanın digər qəzaları ilə oxşar vəziyyətdə olmalıdır. Nazir aqrar islahat keçirilənədək nə pay torpaqlarının dəyişdirilməsinə, nə əlavə pay torpaqların ayrılmasına, nə də xəzinə, yaxud sahibkar torpaqlarının özbaşına zəbt olunmasına yol vermədən həmin vaxta kimi mövcud olmuş torpaq münasibətlərinin saxlanması prinsipini qətiyyətlə həyata keçirməyin zəruri olduğunu bildirirdi [9, s. 53-54].

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Bakı, Gəncə və Zaqatala quberniyalarının sahibkar və keşkəl torpaqlarında məskunlaşmış kəndlilərdən 1912-1913-cü illər aqrar islahatları ilə onlara verilmiş pay torpaqlarına görə ödənclərin ödənilməsinin müvəqqəti ləğv edilməsi barədə 1919-cu il 18 oktyabr tarixli qərarı da məhz bu qəbildən həyata keçirilmiş tədbirlərdən idi. Həmin qərarda deyilirdi ki, kəndlilərin Bakı və Gəncə quberniyalarında asılılıq münasibətlərin ləğv edilməsinə dair 20 dekabr 1912-ci il və Zaqatala dairəsində asılılıq münasibətlərin ləğv edilməsinə dair 7 iyun 1913-cü il tarixli qanunlarına əsasən ödənclərin ödənişi, eləcə də 20 dekabr 1912-ci il qanununa uyğun olaraq Bakı və Gəncə quberniyalarında sahibkarlara fidyənin verilməsi müvəqqəti olaraq dayandırılsın [7, s. 374].

1912-1913-cü illərdə verilmiş aqrar islahatları ilə sahibkar kəndliləri torpaq mülkiyyətçilərinin xeyrinə rüsumlardan azad edilirdi və onlar öz paylarını ödənc ödəməklə almağa borclu idilər. Dövlət torpaq mülkiyyətçilərinə pay torpaqlarının kəndlilərin mülkiyyətinə keçməsi üçün haqq ödəməli, kəndlilər də müəyyən müddət ərzində dövlətə olan borclarını ödəməli idilər. Bakı quberniyasının kəndliləri 1913-cü ildən başlayaraq hər il xəzinə palatasına 131678 rubl ödənc verməli idilər. Kəndlilər belə məbləği ödəyə bilmədiklərindən qalıq borc növbəti ilə keçirdi. İlk hesablama siyahılarının tərtib edilməsi ilə əlaqədar 1913-cü il yanvarın 1-dən ləğv olunmuş mükəlləfiyyət əvəzində bəylər ödənc almağa başlamışdılar. 1915-ci il yanvarın 1-nə qədər Zaqatala dairəsinin 47 kəndi üzrə 1583 torpaq sahibinə ödənc pulu almaq üçün vəsiqə verilmişdi. Torpaq sahibləri həmin vəsiqələr üzrə 241811 rubl ödənc pulu almışdılar. 1915-ci il yanvarın 1-nə olan məlumata görə, Zaqatala dairəsində ikinci və üçüncü barışdırıcı şöbələrdə torpaq sahiblərinin ödənc pulunu alması başa çatdırılsa da, birinci barışdırıcı şöbədə bəylərə və keşkəl sahiblərinə 16962 rubl borcu qalmışdı [1, s. 51].

Torpaq məsələsinin həll olunması istiqamətində həyata keçirilən tədbirlərdən biri də hərbi əməliyyatlar zamanı əhali tərəfindən məcburən tərk edilmiş torpaqların xüsusi komissiyalar vasitəsilə ayrı-ayrı icmalara və kəndli təsərrüfatlarına verilməsi barədəki tədbir idi. Bunun ardınca isə aqrar islahat layihəsinin hazırlanması məqsədilə Azərbaycan hökumətinin 24 fevral 1919-cu il tarixli sərəncamı ilə Əkinçilik Nazirliyinin nəzdində aqrar islahat işləri üzrə müdir və onun köməkçisi vəzifələri təsis olunur [7, s. 281].

Azərbaycan hökumətinin 19 may 1919-cu il tarixli sərəncamı ilə Əkinçilik və Dövlət Əmlakı Nazirliyinin nəzdində aqrar islahat işləri üzrə müdir, Su idarəsində texniki hissə üçün mühəndis, Yuxarı və Aşağı Muğan suvarma sistemlərinin müdiri və su sahələrində 5 böyük və 4 kiçik texnik vəzifələri təsis olunur [7, s. 314-315].

Bu vəzifələrin təsis olunması ilə Azərbaycan hökumətinin 24 fevral 1919-cu il tarixli sərəncamı ilə Əkinçilik Nazirliyinin nəzdində təsis olunmuş aqrar islahat işləri üzrə müdir və onun köməkçisi vəzifələri ləğv olunur. Həmin sərəncamla Əkinçilik nazirinə tapşırılırdı ki, iyun ayının sonuna kimi aqrar islahat layihəsini hazırlayıb Nazirlər Şurasının təsdiqinə versin. Azərbaycan hökumətinin Əkinçilik Nazirliyinin nəzdində yaradılmış Aqrar İslahat şöbəsinin ştatlarının və smeta xərclərinin təsdiq olunması barədə 1919-cu il 6 iyun tarixli sərəncamı ilə yeni yaradılmış Aqrar İslahat şöbəsinin saxlanması məqsədilə hökumətin fondundan 150 min rubl vəsait ayrılırdı [7, s. 324-325].

1919-cu il yayında biri Əkinçilik nazirliyi, digəri isə parlament komissiyası tərəfindən olmaqla iki aqrar qanun layihəsi hazırlansa da onların heç biri parlamentin müzakirəsindən keçmir. Parlament komissiyasının hazırladığı qanun layihəsinə əsasən, respublika ərazisində bütün torpaqlar dövlət mülkiyyəti elan edilir, torpaq mülkiyyətçilərinə məxsus artıq torpaqların hamısı torpaq komitələrinin xeyrinə müsadirə edilirdi. Torpaq Komitələrinə dövlət fondundan icarə əsasında az torpaqlı və torpaqsız kəndlilərə torpaq vermək hüququ verilirdi. Qanun layihəsində şəxsi istifadə üçün əvvəlki mülkiyyətçilərə qalan torpaqların norması isə 25 desyatindən 75 desyatinə qədər müəyyən edilmişdi [11].

1919-cu ilin iyulunda Əkinçilik Nazirliyinin nəzdində yaradılmış Aqrar İslahatlar şöbəsi bir ay müddətində "Azərbaycan Respublikasının əhalisinin torpaqla təminatı haqqında" və "Xüsusi mülkiyyətdə olan meşələrin dövlət mülkiyyətinə çevrilməsi haqqında" qanun layihələrini hazırlayıb baxılmaq üçün nazirliyə təqdim edir. Parlament komissiyasının hazırladığı aqrar qanun layihəsi onun radikal mahiyyət kəsb etməsi adı ilə parlamentdən keçmir. Əkinçilik Nazirliyinin hazırladığı aqrar qanun layihəsində isə sahibkarlardan torpaqların haqqı ödənilməklə alınması və bu pulun torpağın istifadəsi zamanı əldə edilən gəlir hesabına ödənilməsi nəzərdə tutulurdu ki, bu layihənin həyata vəsiqə almasına 1919-cu ilin payızında baş vermiş hökumət böhranı mane olur [13, s. 256-257].

Qeyd olunan aqrar islahat layihələrinin müzakirəsi zamanı Azərbaycan Xalq Cümhuriyyətinin parlamentində təmsil olunan aparıcı partiyaların hər birinin aqrar məsələnin həlli ilə bağlı mövqelərində fərqli yanaşmaların olması da bu sahədə işlərin ləng getməsinin başlıca səbəb-

lərindən biri idi. Belə ki, Müsavat partiyasının 1919-cu ilin dekabrında keçirilən II qurultayının nümayəndələri partiya rəhbərliyini kəndlilərin ehtiyaclarına kifayət qədər diqqət yetirməməkdə və aqrar islahatların aparılmasında ləngliklə ittiham etmişdilər.Qurultay böyük səs çoxluğu ilə xəzinəyə, keçmiş çar evinə, sahibkarlara, habelə xüsusi mülkiyyətdə olan torpaqların əvəzi ödənilmədən götürülərək zəhmətkeşlər arasında bölüşdürülməsi barədə qərar qəbul edir. Alınan torpağın dəyəri mülkiyyətçilərdən gəlir vergisi tutulmaqla formalaşan fonddan ödənilməli idi [11].

Hümmətçilər isə sahibkarlara 10 desyatin bağ sahəsi, 15 desyatin əkin sahəsi, 45-50 desyatin otlaq sahəsini saxlamaqla qalan torpaqların ödənc müqabilində kəndlilərə verməyi təklif edirdi. O, ödənc pulunu kəndlilərin üzərinə qoyulmuş gəlir vergisi ilə almaqla faktiki olaraq kəndlilər tərəfindən torpağın sahibkarlardan satın alınmasını təklif edirdi [8, s. 78].

Azərbaycan hökumətinin 1919-cu il 27 oktyabr tarixli sərəncamı ilə Əkinçilik Nazirliyinin Aqrar İslahat şöbəsinin fəaliyyət müddətinin uzadılması barədə verilmiş sərəncamı ilə həmin şöbənin fəaliyyəti daha iki ay müddətinə uzadılmaqla, bu müddətdə onun xərcləri üçün 72 min rubl vəsait ayrılırdı [7, s. 377].

1920-ci ilin əvvəllərində Əkinçilik Nazirliyi tərəfindən "Xüsusi mülkiyyətdə olan torpaqların dövlət torpaq fonduna verilməsi və Azərbaycan Respublikasının əhalisinin torpaqla təmin olunması haqqında" aqrar qanun layihəsi hazırlanır. Layihəyə əsasən, xüsusi mülkiyyətdə olan bütün monastır, vəqf, məscid və kilsə torpaqları haqqı ödənmədən dövlət torpaq fonduna keçirdi. Bu torpaqlar, o cümlədən boş dövlət torpaqları ödənc ödənmədən torpaqsız və aztorpaqlı kəndlilərə verilirdi. Qanun layihəsində torpağın kəndlinin mülkiyyətinə verilməsi nəzərdə tutulurdu, bir şərtlə ki, həmin torpaqların mülkiyyətçilər tərəfindən satılması və ya girov qoyulması yalnız Əkinçilik nazirinin icazəsi ilə mümkün olsun. Torpaqların müsadirəsi və sonradan bölüşdürülməsi bilavasitə kəndlilərin özlərinin iştirakı ilə baş verə bilərdi. Bu məqsədlə yerli torpaq komissiyalarının formalaşdırılması nəzərdə tutulmuşdu. Qanun layihəsində ayrılmış torpaqlarda suvarma suyundan istifadə qaydaları da müəyyən edilirdi. Lakin parlamentarilər iri torpaq mülkiyyətçiliyinin ləğvini nəzərdə tutan, həmçinin kəndli və torpaq mülkiyyətçilərinin hüquqlarını bərabərləşdirən bu qanun layihəsinin əleyhinə çıxış edirlər. Həmin ilin fevralında Müsavat partiyası tərəfindən hazırlanmış, torpaqları əllərindən alınan xüsusi mülkiyyətçilərə ədalətli kompensasiyanın verilməsini, həmçinin otlaqların, meşələrin və yerin altının əvvəlki sahiblərin əlində qalmasını nəzərdə tutan aqrar islahat layihəsi də eyni aqibəti yaşayır [11].

**Nəticə**

Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti dönəmində parlamentdə mövcud olan partiya qarşıdurması aqrar islahatların aparılmasına və torpaq məsələsini həll etməyə imkan vermir. 1919-cu ilin fevralından fəaliyyət göstərən Aqrar komissiyanın 25 dəfə iclası keçirilsə də, bu sahədə ciddi bir qərar qəbul edilməsinə nail ola bilməmişdi[4,s.73].1920-ci ilin aprelin sonlarında Azərbaycanın bolşevik Rusiyası tərəfindən işğalı Azərbaycan Xalq Cümhuriyyəti zamanında aqrar məsələnin həlli istiqamətində apardığı işlərin yarımçıq qalmasına səbəb olur. Bolşevik işğalı Azərbaycanda Xalq Cümhuriyyətinin zamanında yaranmış müəyyən daxili sosial-iqtisadi sabitliyin pozulmasını doğurmuş, burada hərbi kommunizm siyasətinin tətbiqi, qoşunların azğınlığı böhranı daha da dərinləşdirmiş, əhalinin sosial-iqtisadi vəziyyətini dözülməz həddə gətirib çıxarmışdı. 1919-cu ilin sentyabrın 29-da Moskva rəhbərliyinə təqdim etdiyi Azərbaycanda vəziyyətə dair məlumat-qeydlərində həmin vaxtı respublikada ərzaq işinin yaxşı olduğunu və bolluğun müşahidə edildiyini, çörəyin keyfiyyətindən asılı olaraq 3-6 rubl, qəndin funtunun 30-40 rubl təşkil etdiyini, digər ərzaqların daha az əlçatan olsa da, kifayət qədər olduğunu yazan Nərimanov [10, s.290]. Azərbaycanın işğalından cəmi beş ay sonra, 1920-ci ilin oktyabrın 4-də xalq ərzaq komissarı Q.Musabəyovla birlikdə Leninə vurduğu teleqramda sovet Azərbaycanındakı acınacaqlı ərzaq durumundan bəhs edirdi. O yazırdı ki, Azərbaycanın bütün qəzaları tamamilə aclıq çəkir və Azərbaycan Xalq Ərzaq Komissarlığı Bakı fəhlələrinin təminatı üçün kifayət qədər taxılın olmaması səbəbindən qəzalarda ərzaq

böhranını hətta az da olsa yumşaltmaq iqtidarında deyil [17, v. 5].

Göründüyü kimi, Azərbaycan Xalq Cümhuriyyəti dövründə hökumətin yaranmış sosial-iqtisadi böhrandan çıxmaq istiqamətində atdığı addımlar bir sıra obyektiv və subyektiv səbəblərdən arzuolunan nəticəni vermədi. Azərbaycan hökumətinin ölkədə iqtisadi tərəqqiyə nail olmaq, həm dövlət, həm də özəl sektorun bərabər inkişafını təmin etmək, kənd təsərrüfatında tənəzzülün qarşısını almaq məqsədilə nəzərdə tutduğu bir çox tədbirlər ilk növbədə siyasi çəkişmələr və sağyönümlü qüvvələrin əks təsiri üzündən kağız üzərində qaldı. Bu isə ölkədə bolşeviklərin hökumət əleyhinə fəaliyyətinə imkan verən əsas səbəblərdən biri oldu. Bolşeviklər Cümhuriyyət hökumətinə qarşı öz fəaliyyətlərində hökuməti aqrar məsələni həll etməməsini əsas arqument kimi istifadə etmişlər.

### Ədəbiyyat


1. Azərbaycan tarixi. V cild (1900-1920-ci illər). [yeddi cilddə] – Bakı, 2008. 696 s.
2. Səməndərov S. 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin aqrar siyasəti, - Bakı, 2018 Strateji təhlil, say 1-2 (23-24), s. 277-290.
3. Səməndərov, S.S. 1917-1920-ci illərdə Azərbaycanda aqrar məsələ. - Bakı, 2009. 261 s.
4. Rəhimov,Ə.C. 1920-ci ildə Azərbaycanda mülkədar torpaq sahibliyinin ləğvi. –Bakı: Azərbaycan SSR Elmlər Akademiyası, - 1962, 211s.
5. Адрес-календарь на 1920 АР. год. - Баку, Nağıl evi, 2011. 336 стр.
6. Азербайджан в 1917-1920 гг. Tarix və Etnologiya İnstitutunun Elmi Arxivi (TEİEA), fond 1, siyahı. 9, iş 1882
7. Азербайджанская Демократическая Республика (1918 1920 гг.). Законодательные акты (Сборник документов). - Баку: «Азербайджан»,- 1998, 423 стр.
8. Гусейнов И.А. Крестьянское движение в Азербайджане в 1917-1920 гг. "Великий Октябрь и борьба за Советскую власть в Азербайджане,- Баку: Академия Наук Азербайджанский ССР, -1958, 503 стр.
9. Гусейнов, И.А. Крестьянское движение в Азербайджане в 1917-1920 гг. AMEA TEİEA, fond 1, siyahı. 9, iş 430
10. Из записи устного сообщения Н.Нариманова в Москве о положении в Азербайджане. 29 сентября 1919 год. Борьба за победу советской власти в Азербайджане 1918-1920. Документы и материалы :-Баку: АН Аз. ССР, - 1967 , 569 стр.
11. Исмаилов К.Н. Аграрные отношения и земельный вопрос в Азербайджанской Демократической Республике (1918-1920 гг.). https://voencomuezd.livejournal.com/1589518.html
12. Мамедзаде, Н.Н. Экономическая политика Азербайджанской Демократической Республики: власть и партии в поисках оптимальной модели. - Баку, "Birol group", 2023, 208 стр.
13. Мамедзаде, Н.Н. Экономическая политика Азербайджанской Демократической Республики: поиски оптимальной модели. Strateji təhlil, Say 1-2 (23-24), 2018,. 245-264 стр.
14. Мусабеков Г.М. Положение крестьян до и после революции. AMEA TEİEA, fond 1, siyahı. 9, iş 4196
15. Орджоникидзе , Г.К. Стати и речи, В 2-х тт., т. 1,- Москва, 1956, стр.
16. Султанов, Г. Краткий очерк развития некоторых отраслей промышленности Азербайджана. Баку: Издание Статотдела Азнаркомпромторга, - 1923, 144 стр.
17. Телеграмма Народного Комиссариата Продовольствия АзССР, адресованные Совету Народных Комиссаров РСФСР по вопросу снабжения Аз-й Республики, от 4-го октября 1920 г. (Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), fond61, siyahı.1, iş 128

**Резюме**

**Лaмия Султанова**

**О сельскохозяйственных аспектах экономической политики Азербайджанской Народной Республики**

Первая мировая война оказала негативное влияние на экономику Азербайджана. Этот спад наблюдается в различных областях сельского хозяйства Азербайджана. В такой ситуации для молодой республики было очень важно принять меры по устранению существующих недостатков в области землеустройства в стране и удовлетворению потребностей населения в земле. В указанный период существовавшие в парламенте разногласия между партиями препятствовали проведению аграрных реформ и решению земельного вопроса. Оккупация Азербайджана большевистской Россией в конце апреля 1920 года привела к завершению работы Азербайджанской Демократической Республики в направлении решения аграрного вопроса.

***Ключевые слова:*** *Азербайджанская Демократическая Республика, земля, сельское хозяйство, крестьянин, Аграрная комиссия*

**Summary**

**Lamia Sultanova**

**About the agricultural aspects of the economic policy of the Azerbaijan Democratic Republic**

The First World War had a negative impact on the economy of Azerbaijan. This decline is observed in various areas of Azerbaijan's agriculture. In such a situation, it was very important for the young republic to take measures to eliminate existing shortcomings in the field of land management in the country and meet the needs of the population for land. During this period, disagreements between parties in parliament prevented the implementation of agrarian reforms and the solution of the land issue. The occupation of Azerbaijan by Bolshevik Russia at the end of April 1920 led to the completion of the work of the Azerbaijan Democratic Republic towards solving the agrarian question.

***Keywords:*** *Azerbaijan Democratic Republic, land, agriculture, peasant, Agrarian commission*